# UNİVERSİTET XƏBƏRLƏRİ

## "DAHA YAXŞI DÜNYA ÜÇÜN - DÜNYA DİNLƏRİNİ TANIYAQ"

Dekabrın 17-24-də Xəzər Universiteti Şərq dilləri və din araşdırmaları departamentinin təşkilatçılığı ilə universitetdə "Daha yaxşı dünya üçün- dünya dinlərini tanıyaq" adlı proqram silsiləsinin dörd təqdimatı keçirildi. Tədbirlərdə universitetin əməkdaşları, müəllim heyəti və tələbələri ilə yanaşı Azərbaycan Respublikasında rəsmi qeydiyyatdan keçmiş dini icmaların nümayəndələri və digər qonaqlar da iştirak etdi.

Adı çəkilən proqram silsiləsi çərçivəsində dekabrın 17-də həyata keçirilən "Dindən mədəniyyətə: Yəhudilik" adlı birinci təqdimatda Şərq dilləri və din araşdırmaları departamentinin müdiri, fəlsəfə doktoru Elnurə Əzizova proqramın məqsədi və hədəfləri haqqında iştirakçıları məlumatlandırdı. O qeyd etdi ki, proqramın əsas məqsədi tələbələrin böyük dünya dinləri ilə əlaqəli məlumatlandırılması, onlarda dini-mədəni fərqliliklərə qarşı dözümlülük xüsusiyyətinin inkişaf etdirilməsidir. Sonra iştirakçılar Yəhudiliyin tarixi, inanc sistemi, ibadət qaydaları, əxlaqi-fəlsəfi görüşləri, başlıca cərəyanları, ictimai strukturu, bayram festivalları və adət-ənənələrinə aid əlaqəli əyani vəsaitlərlə zənginləşdirilmiş məlumatlarla tanış oldular. Bakı Yəhudi İcmasından Ravvin Şenor Seqal Yəhudilikdə milli-dini bayram və xüsusi günlərlə əlaqəli məlumat verdi. Tədbirin başqa bir qonağı, Dağ Yəhudiləri İcmasının sədri Milih Yevdayev isə Dağ Yəhudilərinin Azərbaycanda məskunlaşması, tarixi və müasir dövrdəki vəziyyəti haqqında danışdı. Sadəcə nəzəri məlumatlarla məhdudlaşdırılmayan təqdimatda Yəhudiliklə əlaqəli müxtəlif atributlar nümayiş etdirildi. Xəzər Universitetinin tələbələrinin ifasında ibri dilində nəğmə dinləyən iştirakçılar milli yəhudi mətbəxinin bəzi təamları ilə də tanış oldular.

Dekabrın 19-da keçirilən "Dindən mədəniyyətə: Xristianlıq" adlı ikinci təqdimatda iştirakçılar Xristyanlığın tarixi, inanç-ibadət sistemi, əsas əxlaqi-fəlsəfi görüşləri, ictimai strukturu, adət-ənənələri və bayramları ilə vəhdət təşkil edən əyani vəsaitlərlə müşayiət edilən məlumatla tanış oldular. İştirakçıların mövzu ilə bağlı sualları cavablandırıldı.

*(Ardı və fotolar səh. 70-71-də)*

## "XƏZƏR"Ə TƏŞƏKKÜR MƏKTUBU

Hörmətli Hamlet müəllim!

Sizin gözəl insan olmağınız, uşaqlara göstərdiyiniz atalıq qayğısı, humanistliyiniz işlədiyiniz kollektivdə də öz əksini tapmışdır. Biz Sizə belə bir kollektiv yetişdirdiyiniz üçün minnətdarlığımızı bildirir, təşəkkür edirik.

Yeni il bayramı və Dünya Azərbaycanlılarının Həmrəylik Günü münasibətilə kollektivinizi, İqtisadiyyat fakültəsinin tələbələrini, Nanə xanım Kələntərovanı və Şəxsən sizi uşaqlar və kollektiv adından səmimi-qəlbdən təbrik edir, çətin və şərəfli işinizdə uğurlar arzu edirik.

*Hörmətlə ,100 uşaq adından*
*Direktor Məhbubə Hüseynova*
*25.12.2012*

Khazar review

It has been publishing since January, 1995

**Founder:**
**KHAZAR UNIVERSITY**

**Editor-in-chief:**
**Hamlet ISAXANLI**

**Associate editor:**
**Alirza BALAYEV**

**Editorial member:**
**Jamal MUSTAFAYEV**
**Jamil HASANLI**
**Nizami JAFAROV**
**Knyaz ASLAN**
**Afgan ABDULLAYEV**

Design by:
**Mir Rafig ABDULRAHIMOV**

Computer graphics:
**Nigar AYDEMİROVA**

Photo:
**MEDIA CENTRE**

*Address:*
*11 Mahsati str., Baku,*
*(near the "Neftchilar" metro)*
*Fax: 498-93-79*
*Phone: 421-79-16*
*421-10-93*
*E-mail: redaksiya@khazar-view.org*

*Certificate: 376*
*Index: 67178*
*Order: 190*
*Copies: 3000*

## ÇİNƏ RƏSMİ SƏFƏR

Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı Çin Xalq Respublikasında rəsmi səfərdədir. H. İsaxanlı dekabrın 27-də Pekində keçirilən I Ümumdünya Enerji Forumunda "Azərbaycanın enerji və neft siyasəti: keçmişi, bu günü və gələcəyi" mövzusunda məruzə ilə çıxış etmişdir.

Forumun rəsmi açılışında Çin Kommunist Partiyasının rəhbər nümayəndələri, nazirlər və xarici qonaqlar iştirak etmişlər. Forumun əsas müzakirə mövzusu Çin, Rusiya, Orta Asiya və Xəzər Dənizi ölkələrinin enerji siyasəti olmuşdur. Çin Enerji Fondu və Çin Neft Universiteti tərəfindən təşkil olunmuş forum rəsmi açılışdan sonra 6 bölmədə işini davam etdirmişdir. H. İsaxanlı Cənubi Qafqaz bölgəsindən forumda iştirak edən yeganə nümayəndə olmaqla onun rəyasət heyətinə seçilmiş və bölmələrdən birinin rəhbəri təyin olunmuşdur.

H.İsaxanlının forumda iştirak edən Çinin energetika sahəsinin rəhbərləri və Azərbaycanın Çin Xalq Respublikasındakı səfiri Lətif Qəndilovla görüşləri olmuşdur.

H. İsaxanlı, həmçinin, Seul Universitetinin, Şərqi Çin Universitetinin, Şanxay Universitetinin, Anqui Universitetinin rəhbərliyi ilə görüşmüşdür. Görüş zamanı müxtəlif sahələrdə əməkdaşlıq məsələləri müzakirə edilmişdir.

## "XƏZƏR" DƏ YENİ İL ŞƏNLİYİ

Dekabrın 28-də Xəzər Universitetinin Mərkəz kampusunda İqtisadiyyat və Menecment fakültəsinin və Bakı Musiqi akademiyasının tələbələrinin birgə təşkilatçılığı ilə Yeni il şənliyi keçirildi. Şənlikdə İqtisadiyyat və menecment fakültəsinin dekanı İnqilab Əhmədov və Bakı Musiqi Akademiyasının professoru Tofiq Aslanov da iştirak edirdilər. Tədbirdə hər iki ali məktəbin tələbələri müxtəlif musiqi nömrələri ilə çıxış etdilər. Tədbirdə, həmçinin, "Got Talent" şousunun qaliblərinə pul mükafatları da təqdim olundu.

* * *

Dekabrın 30-da Xəzər Universitetində professor-müəllim heyəti və əməkdaşlar üçün Yeni il şənliyi keçirildi. Şənlik iştirakçıları məclisə dəvət olunmuş peşəkar musiqiçilərin ifalarını dinlədilər, rəqs edib əyləndilər və müsabiqələrdə iştirak etdilər. Universitetdə yeni yaradılmış həmkarlar ittifaqı təşkilatının sədri Əlövsət Əmirbəyli tərəfindən bir sıra əməkdaşlara şəhərdə keçiriləcək yolka şənliklərinə biletlər verildi. Tədbirdə Xəzər Universitetinin prorektorları Məhəmməd Nuriyev və Rafiq Əhmədov iştirak etdilər.

*(Fotolar jurnalın üz qabığının 2- ci səhifəsində)*

## QƏRB ÖRNƏKLƏRİ ƏSASINDA YENİ LAYİHƏ HAZIRLANIR

Belə bir fikir doğulub ki, əgər Azərbaycan elminin gerçəkdən inkişafını istəyiriksə, bizim ölkədə yeni bir Elmlər Akademiyası yaradılmalıdır. Akademiya yığcam olmalı, balacalaşmalı, onun struktur tərkibi kimi görünən ayrı-ayrı elmi-tədqiqat institutları isə universitetlərin tabeliyində fəaliyyət göstərməlidir.

Azərbaycan kimi kiçik bir ölkə üçün belə bir elmi ideyanın beşiyi başında 5 tanınmış alim dayanır. Bunlar Halil İnalcıq (görkəmli tarixçi alim, Türkiyə vətəndaşı), Lütfi Zadə ("qeyri-səlis məntiq" nəzəriyyəsinin yaradıcısı, ABŞ vətəndaşı), Mahmud Qazi Yaşargil (tibb alimi, neyrocərrahiyyənin banisi, ABŞ vətəndaşı), sənətşünas alim Arif Məlikov və riyaziyyatçı alim, Xəzər Universitetinin təsisçisi Hamlet İsaxanlıdır.

Bu alimlərin arasındakı razılaşmaya görə, Azərbaycan Akademiyasının beş bölmə üzrə fəaliyyət göstərməsi planlaşdırılır: Riyaziyyat və təbiət elmləri; Canlı həyat haqqında elmlər (tibb, biologiya,…); Mühəndislik və texnologiya; Humanitar və sosial elmlər; Ədəbiyyat, incəsənət, musiqi. Əlavə məlumatı bu linkdə

*http://www.ayna.az/2012/elmler-akademiyasi-nece-olmalidir/* əldə edə bilərsiniz.

## TƏLƏBƏMİZ ABŞ - DA

*Xəzər Universitetinin tələbəsi Lamiyə Korçiyeva IREX tərəfindən təşkil olunan və ABŞ Dövlət Departamentinin sponsorluğu ilə həyata keçirilən UGRAD təqaüd proqramı üçün seçilmiş 5 finalçıdan birdir. O, 2013-cü ilin may ayına qədər Kanzas ştatının Lindsborg şəhərində yerləşən Bethani kollecində Biznesin təşkili ixtisası üzrə təhsil alacaq.Lamiyə aşağıdakı məktubunda ABŞ-dakı fəaliyyəti haqqında "Xəzər"i məlumatlandırır.*



Yazıb sizə bildirirəm ki, mən Bethani kollecində ilk semestri uğurla tamamladım.

Təhsilimdən əlavə, kollec əməkdaşlarını və tələbələrini Azərbaycan mədəniyyəti və mətbəxi ilə tanış etməkdən ötrü də əlimdən gələni edirəm. Tədbirlərin birində sevdiyim "Nəlbəki" rəqsini ifa etdim. Rəqs hamının xoşuna gəldi və onu öyrənmək istəyənlər də tapıldı. Tamaşaçılar Azərbaycan haqqında videoçarxa da böyük maraqla baxdılar. Qeyd etdiyim kimi, buradakıları Azərbaycan mətbəxi ilə də tanış edirəm. Bişirdiyim düşbərəni hamı təriflədi.

Dərsdən sora asudə vaxtlarda kilsədə uşaqlarla məşğul olur, Qırmızı xaç komitəsində könüllü olaraq çalışır, İcma bağçasında işləyirəm.

Mən burada olduğum üçün, ölkəmi təmsil edib çox şey öyrəndiyim üçün özümü çox xoşbəxt hiss edirəm. Bir sözlə, arzularım gerçəkləşir. Dəstəyinizə görə təşəkkür edirəm.

*Hörmətlə,*
*Lamiyə Korçiyeva*
*8 yanvar 2013-cü il*

## "AÇIQ DƏRS" PROQRAMINDA

Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı yanvarın 9- da İctimai TV-nin "Açıq dərs" proqramında "Təhsilin idarə edilməsi və maliyyələşdirilməsində yeni meyllər" mövzusunda müzakirədə iştirak etdi. O, Azərbaycanda bu sahədə son zamanlar görülən işlər barədə danışdı, dünya təcrübəsindən misallar gətirdi, yeni meyllərin müsbət və mənfi tərəflərini təhlil etdi.

## QALİBLƏRƏ SERTİFİKATLAR TƏQDİM OLUNDU

Yanvarın 7-də "Dünya"" məktəbində Yekun test-1 nəticələrinə əsasən əlaçı şagirdlərə və "Ən yaxşı sinif " müsabiqəsində qalib gələn siniflərə sertifikatlar təqdim olundu.

## XƏZƏR UNİVERSİTETİ "DÜNYA" MƏKTƏBİNDƏ YENİ LAYİHƏ

Layihənin məqsədi Bakı şəhərində yerləşən qaçqın və məcburi köçkün məktəblərində ingilis dili fənninin tədrisinin təkmilləşdirilməsi və müasir tələblər səviyyəsində qurulmasında ingilis dili müəllimlərinə yardım etmək və dəstək olmaqdır. Bu məqsədlə "Dünya" məktəbində onlar üçün məktəbin Xarici dillər departamenti tərəfindən "Ümumtəhsil məktəblərində ingilis dili tədrisinin təkmilləşdirilməsi yolları" mövzusunda təlim kursu təşkil ediləcək.

Layihənin hazırlıq mərhələsində qaçqın və məcburi köçkün məktəblərində işləyən ingilis dili müəllimləri ilə keçiriləcək görüşdə onlar layihə ilə tanış ediləcək, istək və maraqları öyəniləcək və bundan sonra təlim kursunun planı tərtib olunacaqdır.

Layihə bu ilin fevral ayından başlayaraq, bir il müddətində həyata keçiriləcək. Ayda bir dəfə keçiriləcək təlim kursu 3 məşğələdən ibarət olacaq. Birinci məşğələ xarici ölkələrdən dəvət olunmuş dil mütəxəssisləri tərəfindən aparılacaq. İngilis dilinin dünya standartlarına uyğun tədris olunması, oxu, yazı, danışıq, dinləmə bacarıqlarının inkişaf etdirilməsi yolları nümayiş etdiriləcək. İkinci məşğələ İKT-nin tədris prosesinə tətbiqi və elektron resurslardan istifadə edilməsi mövzusuna həsr olunacaq. Üçüncü məşğələ - nümunə dərsi "Dünya" məktəbi və ya Xəzər Universitetinin müəllimləri tərəfindən aparılacaq.

Təlim məşğələlərində müəllimlər lazımı materiallarla təmin ediləcəklər. Hər məşğələnin sonunda sorğu anketi vasitəsilə onların zəif və güclü tərəfləri müəyyənləşdiriləcək və növbəti məşğələ üçün təklifləri nəzərə alınacaq. Təlim kursunun sonunda iştirakçı müəllimlərin nümunə dərsləri dinləniləcək və qiymətləndiriləcək.